Neçə yüz milyonluq qədim bir ölkə
Yıxıldı bir palıd əzəmətiylə.
Oldu liliputa o, müstəmləkə
Diliylə, diniylə, var-dövlətiylə.

İmperiya at çapdı hind ellərində, –
Gördülər dili də qarət dilidir.
Öldü imperiya,
Dili bu gün də
Nəhəng Hindistanda dövlət dilidir.

İşlər o torpaqda elə quruldu,
Unutdu dilini minlər, milyonlar.
İmperiya yıxıldı, sular duruldu!
Yenə ingiliscə danışır onlar.

Kiplinq, sən bunları tərənnüm etdin,
Sən uğur dilədin cahangirliyə.
Bəzən ordulara qoşulub getdin,
"Təslim ol, üstünə gəlirik!" deyə.

Sən Valter Skottun, Robert Bernsin,
Taqorun yurduna, bax, belə girdin.
Kişiydi bir ölkə xərac verməsin,
Sən onu şerinlə hədələyirdin.

Bayron həlak oldu Yunanıstanda –
Qanlı əsarətdən qalmasın bir iz.
Sən cahangirliyi ötdün cahanda,
Bayron da ingilis, sən də ingilis!

Şair vicdanıdır bəşəriyyətin,
Şeir – yer üzündə ən ali nemət.
Şair əsarəti vəsf edə – çətin!
Şeir cahangirlik nəğməsi – heyrət!

Şotland ellərini dolaşıram mən,
Behişt təravətli bir torpağı var.
"Qardaş" dediyiniz "müstəqil Vətən" –
Nə himni, nə gerbi, nə bayrağı var.

Aktyor dostumla söhbətlər

BAŞÇILAR

Bu səhnəyə gələn gündən
Neçə paltar dəyişmişəm,
Neçə dona girmişəm mən:
Neyləməli,
Budur peşəm.

Roldan-rola girsəm belə,
Dəyişmədim sifətimi.
Ağlasam da gülə-gülə,
Dəyişmədim xislətimi.

Fəhlə oldum – əl çaldılar,
Tacir oldum – yenə alqış.
Rüşvət aldım – əl çaldılar,
Ona nifrət – mənə alqış.
Cəllad oldum, vurdum boyun,
Fateh oldum – bir qəsbkar...
Ah, bu səhnə, ah, bu oyun...
Yenə mənə əl çaldılar.

Əl çaldılar, oraq alıb
Zəmiləri biçəndə də.
Əl çaldılar, əyyaş olub
Gecə-cündüz içəndə də.
Öyrənmişik alqışa biz.
Bir nadana, bir alçağa
Əl çalırıq fasiləsiz.

Bu səhnəyə gələn gündən
Min rəng-boya görmüş üzüm.

Min cür rola girmişəm mən.
Min dodaqdan qopmuş sözüm.
Bu gün satqın, sabah alim,
Sonra cəbhə yarmış əsgər.
Min peşə var,
Eh, nə bilim,
Sonra hakim, sonra rəhbər.

Qəribədir yazıçılar:
Ta qədimdən bu günədək.
İstər adil, istər zalim
Hökmdarlar və başçılar
Son pərdədə ölsün gərək.

Bəlkə şair belə edir bilə-bilə,
Görsün neynir xalq və millət?!
Bu ölümçün yaş tökürmü gilə-gilə,
Ya sevinir
Dodağında söyüş, lənət?!
Öz xalqını, ölkəsini
Çörək üçün yad qapıya aparanı,
Dodaqların nəğməsini,
Ürəklərin sevincini qoparanı,
Ağa kimi baxıb bizə,
Düşmənləri üstümüzə
Güldürəni kim sevəcək?
Könüllərin inamını,
Şairlərin ilhamını
Öldürəni kim sevəcək?

Oynadığım rollar içrə
Lüdovik də, Pavel də var –
Ağlı körpə ağlı kimi.
Hər ölkədə, hər evdə var...
Gördüyü iş tərsinədir
Dəliqardaş nağlı kimi.
Bədən çəllək.
Ağıl gödək,
Hökm eləyir başın üstə.

Xasiyyəti – dəli inək,
Hərəkəti təsadüfdür, yoxsa qəsdən,
Heyrət alır uşağı da,
Təsadüfdür onun başçı olmağı da.

Düşünürəm səhnədə mən
Bu Pavelin yetər biri
Qalsın tarix varağında.
Qoy olmasın müasiri...
Oynadıqca səhnədə mən
Düşünürəm yenə də mən:
Başçı var ki, özü ölür əcəliylə.
Başçı var ki, öldürülür
Bir nəfərin əlləriylə.

Başçı var ki, bütün xalqdır qoruyanı,
Başçı varmış silahlanmış
Əsgərlərdir dörd bir yanı.
Başçı var ki, qalmalıdır,
Ölür ancaq.

Başçı var ki, ölməlidir,
Zülm eləyir yaşayaraq,
Vəba yayır, taun yayır.
Ölümünü xalq istəyir, arzulayır
Bürkü vaxtı əsən sərin külək kimi.
Bir xəstəyə dərman kimi,
Qəhət olmuş çörək kimi,
Azadlığa fərman kimi...

Lakin zaman xali deyil,
Hökm eləyir ədalətlə,
Dolanır ay, dolanır il,
O vuruşub ətalətlə
Oğul doğur, bir oğul ki,
Elin ağlı, zəkasıdır.
Bir oğul ki, əmin ol ki,

Eli qəmdən atasıdır!
Bir oğul ki, ölkəsinin
Fəhləsidir, rəncbəridir.
Şair yaxşı söyləyibdir:
"Həm xalqının rəhbəridir".
Mən Leninin surətini
Səhnəmizdə yaratmışam.
Öz aktyor sənətimi
Onda sevdim, həmin axşam...

Hər səhnəmə gəlişimdən
Salona da yaz gəlirdi.
Onun adi sözünü də deyəndə mən
Alqış, alqış yüksəlirdi.
Unutmuşdu sanki hamı
Bu həyatdır, yoxsa səhnə!
Böyük Lenin ehtişamı
Nur yayırdı qəlbə, beynə.

Yadımdadır o son pərdə,
Açılanda qəfil güllə,
"Ah" nidası ürəklərdə –
Sanki salon pillə-pillə
Uçuruma yuvarlandı...

Əsər bitdi, işıq yandı,
Mən səhnənin qabağına
Aktyortək gələn zaman
Sanki sükut asılmışdı
Uca tağdan, divarlardan.

Alqış yoxdu: bu nə sirdi,
Durmamışdı kimsə hələ.
Salon məni seyr edirdi
Göz yaşını silə-silə.

ROBOT. ROBOT!

Bəzən də mən robot olmaq istəyirəm
Hissiz, qəlbsiz, həyəcansız...
Alçaqlıqdan qisas almaq istəyirəm
Mən insanam – aktyoram.
Vaxt olur ki, qəlbim yanır düşmənə də.
Robot, robot!
Axı insan qəlbi vardır bu sinədə,
Sənin isə canın metal,
Hissin donuq,
Ürəyində yox həsb-hal,
Həyəcanın buztək soyuq.
Robot, bəzən tərk eləyib bu səhnəni,
Mən sən olmaq istəyirəm.
Adam var ki, parçalasan "uf" deməzsən,
Onun üçün fərqi yoxdur –
Cırıq beşlik, ya da vətən,
Bu xislətlə bəlkə təkdir,
Düşünürsən
Xəstə diştək onu çəkdir.
Ah, lənətə gəlmiş ürək.
Qoy yaşasın deyir, bəlkə düzələcək.
Robot, robot!
Mən birini tanıyıram,
Onu görcək qövr eləyir köhnə yaram.
Döyüş vaxtı mərdlər hərbə gedən zaman
O arxada qalıb dövlət toplayırdı.
Neçə-neçə yetim qovdu qapısından,
Neçə-neçə ürək qırdı.
Robot, robot!
O bu gün də işindədir.
Soruşursan işi nədir?
Mənzilinə hədiyyətək
Royal gəlir, xalça gəlir, xalı gəlir,
O rədd etmir, dalı gəlir.

Özü buna rüşvət demir –
"Hədiyyədir".
Mən rast gəldim ona dünən.
Nifrətimi oxuyurdu gözlərimdən.
O ərk ilə çiynimə bir əl də vurdu.
Gülümsəyib söylədi ki, səndə vardır dəvə
kini,
Yeyər səni qəlbindəki bu kin qurdu.
Adam belə kinli olar?
Düşünürəm ki, axı nədir dəvə kini? –
Dəvə heç vaxt bağışlamır düşmənini,
Bir aya da, bir ilə də, beş ilə də
Qəzəbindən əksilməyir bir gilə də.
Robot, robot!
Mən sən olmaq istəyirəm –
Soyuq qəlbli, dəvə kinli,
Mən filin də qəzəbini fildən almaq
istəyirəm.
"Mən it kimi kəsərəm də qulağımı, quyruğumu".
Ki, bəd olum!
Ki, sərt olum düşmənimə,
Robot, robot!
Bu lənətə gəlmiş ürək
Qoy yaşasın deyir, bəlkə düzələcək.
Robot, robot!
İnsan qəlbi məhəbbətdən yoğrulubdur.
Sən liberal demə ona.
Dərddən, qəmdən bulanıbdır, durulubdur.
Kabab olub insanlara yana-yana,
Lakin gözü kor kimidir,
Vaxt olur ki, bağışlayır rəzaləti.
Robot, robot!
Mən sən olmaq istəyirəm
Tərgitməkçün bu adəti!

FUTBOL VƏ ŞEKSPİR

Dostum, doğrudan da, qəribədir, sən
Mənim taleyimə həsəd çəkirsən.
Deyirsən o boyda salon hər gecə
Səni alqışlayır öz ürəyincə.
Başına gül səpir, çiçək ələyir...
Yenə də varmıdır arzun, diləyin?
Yox, dostum, başqadır könlümün dərdi,
Bu dərd daşları da dilləndirərdi.
Mən səhnə oğluyam, yurdum səhnədir,
Səhnəsiz mənimçün səadət nədir?
Mən orda tapmışam sevinci, qəmi,
Orda deyəcəyəm axır kəlməmi.

Baxıram səhnədən salona bəzən
Nə qədər cərgəni boş görürəm mən.
Hanı bir zamanlar qapı sındıran,
Buraya can atan tamaşaçılar?
Buydu aktyoru qanadlandıran...
Tutsun küçələri boran, şaxta, qar,
Teatrdan ayaq kəsilməzdi heç,
Bircə tamaşaçı əksilməzdi heç...

İndi qara gözlük, ölçüsüz corab,
Qafiyəsiz şeir, maraqsız kitab,
Xaricə səyahət dəbdədir yaman.
Ahəngsiz musiqi, kəmərsiz şalvar.
"Modern" adlanan cansız tablolar,
Baxırsan, düşməyir, dildən, dodaqdan.

Bir vaxt gözəllərin zinəti hörük
İndi xanımlara bir yük olub, yük...
Zülfə söz qoşmayır şairlər indi.
Klassik şeri də əzbər deyənə,
Bir az dəbdən kənar paltar geyənə
"Zövqü geri qalıb" deyirlər indi.

Çatlayır, partlayır, stadionlar,
Futbola axışır minlər, milyonlar,
İnsan seltək axır stadiona.
Yetmiş min nəfərlik o yeri gəzsən
Bir-iki boş stul tapa bilməzsən,
Hələ biletsizlər qalsın bir yana!

Eh, futbol neyləsin! Eləsi var ki,
Sənincün min nağıl, dastan açar ki,
Elə bu sözü də "hökmü-zamandır!"
Ötürür oyunu araqla, mərclə,
Günəşli havanı demirəm hələ.
Kişisən, yağışda onu dayandır!

Üzündən tökülür mədəniyyəti,
Son dəbdə geyimi, boyu, qaməti,
Qızıl sağanaqlı çeşməyi qara...
Özü də kiçicik söz düşsə əgər
Futbol qanunundan bir saat deyər:
"Ofsaytdır", "küncdəndir", "çıxdı kənara".

Lakin Falstafı seçməz Yaqodan,
Çaşıb teatra getsə bir zaman
Şüşə gözlər ilə baxar səhnəyə.
Axıra çatmamış hələ tamaşa
Durub asqılığa qaçar birbaşa
"Paltomu hamıdan tez alım" – deyə.

Dünən teatrdan çıxdım mükəddər,
Yolda tutdu məni tanış bir nəfər:
Deyəsən futboldan gəlirdi, qardaş,
Sonuncu oyundan açdı min nağıl.
Əsirdi çiynində kos kimi bir baş –
Üstündə tük yoxdu, içində ağıl.
O, "uduzduq" deyə köks ötürəndə
Mən də köks ötürüb səhnəni andım.
Ancaq mən "dostumun" nəzərlərində
Avamdım, cahildim, həm də nadandım.

Pelenin atılan dırnaqlarını.
Düzü, Seksbirlə dəyişməzdi o.
Mən səhnə dedikcə dodaqlarını
Turş alça yeyənlər kimi büzdü o.

Filosoflar kimi sonra o saat
Əlavə elədi: – Belədir həyat,
Görünür, bu da bir "hökmü-zamandır?!"
O getdi, baxırdım arxasınca mən
Teatr keçirdi nəzərlərimdən –
Bəli, səhnəmizin halı yamandır.
Görürəm son vaxtlar işi əyibdir,
Futbol Şekspiri üstələyibdir.

AKTYORUN MƏHƏBBƏTİ

Hər məhəbbət vaqeədir,
Min üzünü gördüm azı.
Axır mən də bildim nədir
Bir ürəvin vurulması.
Dost, görsəydin onu əgər.
Elə bil vaz voncasıdır.
Gülmə, məni boğur qəhər.
Elə bil gül göncəsidir.
Onu görsən deyərsən sən
İlk baharın saf qətrəsi.
Yanağına səpələnən
O qızılı saç titrəsə
Titrəyirəm yarpaq kimi.
Suya həsrət dodaq kimi
Mən məhəbbət təşnəsiyəm,
Qoy qəlbimi sənə açım.
Sevgi ötən tar səsiyəm...
Görürsənmi, mənim saçım
Ağ çiçəyə batıb tamam.
Onun saçı vaz cəməni.

Mən son payız yarpağıyam,
O bağçalar yaşəməni.
Dostum, gülmə,
Elə bilmə
Sevməmişəm bu vaxtadək
Söylə görüm hansı ürək
Döyünübdür məhəbbətsiz?
Sevmək üçün gəlmədikmi dünyaya biz?!
Hər sinədə bir ürəkdir
İlkin dadan bu neməti.
Bilirsənmi nə deməkdir
Aktyorun məhəbbəti?
Mən sevmişəm insanların əvəzində
Al pərdəli bir səhnədən.
Ömrü keçmiş ixtiyarın nəfəsində
Eşq sevdası tapmışam mən.
Birisinin çilik-çilik sevgisini
Ağrı kimi ürəyimdə daşımışam.
Bilirsənmi necə olur
Aktyorun məhəbbəti?
Gözlər dolur,
İnsanların fəlakəti
Onun ürək tellərinə
Toxunduqca mizrab kimi,
Öz sevgisi xəyal olur
İlğım kimi, sərab kimi.

Məktub aldım bu gün ondan,
Dostum, bahar gəldi sandım
Hər sözündən, salamından
Elə bil ki, cavanlandım.
O bu yaşda, bu qüvvətdə
Görün necə vurulubdur.
Eşqindəki hərarətdə
Sanki günəş yoğrulubdur.
Ağ varaqda kəlmə deyil,
Ürəyinin vurğusudur.

Kitablardan gəlmə deyil,
Öz qəlbinin duyğusudur.
Axı ona kim öyrətdi
Belə çılğın vurulmağı?
De, bu necə məhəbbətdi.
Sevgi belə olmur axı!
Bəlkə də bu tez oyanmış
Bir sevdadır – tez keçəcək.
Ya ağılsız alovlanmış
Bir tonqala düşmüş ürək!

Məhəbbətin hər üzünü
Mən görmüşəm səhnələrdə.
Məhəbbətin hər sözünü
Söyləmişəm pərdə-pərdə.
Bəzən eşqim fəğan edib,
Titrəmişəm yayda belə.
Bəzən eşqim tüğyan edib,
Qarda, qışda tər tökmüşəm gilə-gilə.
Alqışlayıb salon məni:
"Həqiqi eşq belə olar!"
Səhnədəki vaqeəni
Öz macəram anlayıblar.
Səhərisi yağış kimi
Məktub yağıb ünvanıma,
Salondakı alqış kimi
Sözlər axıb ünvanıma.
Sevda dolu hər bir səsi
Özümünkü sanıb çoxu.
Məktubların hər kəlməsi
Bir aləmdir,
Buyur, oxu.
Biri "nakam eşqim" üçün
Min təsəlli verir mənə.
Yazır: "Könül verdin neçün
Eşqə arxa çevirənə?!"
Məktub yazıb neçə qadın

Öz adıyla, özgə adla.
Subayları açıq-aydın.
Ərliləri – ehtiyatla.
Bəlkə elə budur yalnız
O gözəli dindirən də.
Taleyimə yanmış o qız
Mənə məktub göndərəndə?!

QƏZƏB

Nə zamandır,
Gör haçandır
Görüşmədim sənlə mən,
İnan, dostum, qrimi də
Dünən sildim sifətimdən.
Aktyorun taleyidir
Bu gün burda,
Sabah orda.
Nə müddətdir tamaşalar
Göstərirdim yad diyarda.
Bu vaxtadək görmədiyim
Uzaq ellər,
Uzaq ellər...
Yer şarında çalın-çarpaz
Meridianlar, paralellər –
Bir balıqçı toru kimi
Ayağıma dolaşdıqca,
Bu vaxtadək görmədiyim
Dağ keçdikcə,
Yol aşdıqca
Sən dururdun göz önümdə,
Düşünürdüm: dönəydim kaş,
Yad ellərdə gördüyümü
Danışaydım yavaş-yavaş.
Hər torpağın, hər ölkənin
Öz taleyi, öz adəti,

Bu sahilin o sahilə
Bənzəməyir təbiəti.
O yerlərdə insan gördüm
Dərisi ağ, qara, sarı.
Adıyla yox,
Rəngi ilə
Tanıyırlar insanları.
Afrikanı bənzədiblər
Qanı axan bir ürəyə,
Mənsə onu bənzədirəm
Min yamaqlı bir köhnəyə.
Hər yamaqda bir rəngdədir –
Mavi, yaşıl, qara, sarı.
İynə deyil
Süngü salıb
Onlara bu yamaqları.
Gəzdim orda Anqolanı.
Qananı mən, Sudanı mən.
Hər addımda, hər qarışda
Gördüm başqa dünyanı mən.
Son mənzilim Konqo idi,
O bəlalar məmləkəti,
Ondan sənə qoy danışım
Qəribə bir hekayəti,
Xatırıma düşən zaman
Bu əhvalat, alışıram.
Dinlə, sənə gözlərimlə
Gördüyümü danışıram.

O qaralar diyarında
Bir Ruanda şəhəri var,
Hələ orda hökm eləyir
Belçikalı qəsbkarlar.
O şəhərdə başladım mən
İlk səyahət tamaşamı,
İntəhasız bir maraqla
Teatra gəlib hamı

Bilet alır,
Söhbət edir
Şirin bantu lisanında,
Ah, bilsəydin, bax, bu uzaq,
Bu yad Konqo məkanında
Dodaqlarda səsləndikcə
"Azərbaycan", "Sovet" sözü
Fərəhimdən, sevincimdən
Yaşarırdı mənim gözüm.
Hərçənd Vətən burda mənə
Min ağacdan uzaq idi.
Qürbət eldə ürəyimə
Bu iki söz dayaq idi.
İşıq söndü,
Pərdə qalxdı,
Addımladım səhnəyə mən,
Ancaq bu dəm yerimdəcə
Donub qaldım heyrətimdən.
Elə bil ki, ildırımlar
Çaxdı birdən başım üstə.
Üzərimə zəhər dişli
İlan gəldi dəstə-dəstə.
Sanki məni yeyəcəkdi
Bircə anda diri-diri
Sıx Ruanda meşəsinin
Bəbirləri, pələngləri,
Yoxsa ki, mən yuxuluydum,
Yoxsa ki, mən sərxoş idim,
Bir də baxdım...
Bəli, bəli,
Nəhəng salon bomboş idi.
Bir də baxdım...
Lap qabaqda
Oturmuşdu yeddi nəfər.
Salon boşdu axıradək –
Boş kürsülər,
Boş cərgələr.

Bu nə işdir?
Heyrətimdən
Elə bildim ağlım çaşdı,
Axı, bayaq özüm gördüm:
Bir bilet də qalmamışdı!
Qalmamışdı bir bilet də!
İndi yalnız yeddi nəfər...
Dalda isə axıradək...
Boş cərgələr,
Boş cərgələr...
Donub qaldım yerimdəcə...
Tanıyırsan sən ki məni,
Salon tamam dolmayanda
Tərk edirəm mən səhnəni.
Oynadığım olmamışdır
Yarımçıq bir salon üçün.
Necə?
Yeddi tamaşaçı
Qabağına çıxım bu gün?
İstədim ki, var səsimlə
Mən hayqırım:
"Pərdəni sal!"
Lakin nəfəs almağa da
Tapammadım burda macal.
Amiranə bir səs gəldi
Qalın bantu lisanında,
Heç demə ki, şir nərəsi
Olur bəzən insanın da!
Düz səhnəyə qara rəngli
Bir nəhəngdi addımlayan,
Yaxınlaşıb fransızca
Əmr elədi mənə:
– Dayan!
Pərdəni sal!
Deyim hələ
Gəlməmişdim özümə mən,
Qurumuşdum yerimdəcə

Nagəhani bu islərdən.
Amiranə səs ucaldı:
– Yandırınız işıqları!
Sonra döndü asta-asta
Birinci cərgəyə sarı.
Güclü işıq yayılanda
Baxdım yeddi nəfərə mən.
Bu salonun boşluğu da
Aydın oldu mənə birdən,
Bu qaranın qəzəbi də...
Oturmuşdu yeddi nəfər –
Ağ dərili beş uşaqdı,
Ağ dərili arvadla ər.
Mən tanıdım baxan kimi
Belçikalı o fermeri.
Anladım ki, teatrda
O alıbdır bütün yeri –
Tamaşaya qaralarla
Bir salonda baxmasınlar...
Konqolu gənc – dişləri qar,
Donuq heykəl baxışıyla
Seyr edirdi yeddiləri.
Hərəkətə gəldi axır
Yeriyərək az irəli,
Od püskürən vulkan kimi,
Dilə gəldi birdən-birə:
– Neçin belə edirsiniz,
Axı, neçin, nəyə görə?!
İntəhası, nəhayəti
Olacaqmı bu təhqirin?
Öz evimdə, öz elimdə...
Nəyə görə?
Cavab verin!
Demək bizdən iyrənirsiz,
Ola bilər... demək belə...
Çıxın, gedin Brüsselə.
Görürsünüz, biz qarayıq.

Yaraşmırıq siz ağlara.
Bəs nə üçün gəlibsiniz
Siz bu "iyrənc" uzaqlara?
Belçikatək ölkəniz var,
Brüsseltək gözəl şəhər.
Mən görmüşəm
Başdan-başa
Şıq geyimlər, ağ dərilər.
Binaların divarları
Ağappaqdır dəriniztək.
Xanım,
Burda gözəl kişi
Tapmazsınız əriniztək.
Müsyö,
Baxın nə gözəldir,
Nə təmizdir arvadınız.
Sanki bəyaz göyərçindir
Bu üç oğlan, o iki qız.
Belə isə niyə gəldiz
Bu yaramaz, murdar elə?
Yalvarıram, çıxın gedin,
Çıxın gedin Brüsselə.
Bizimlə bir tamaşaya
Baxmaq sizə təhqir ikən,
Bizimlə bir hava udmaq
Qəlbinizə təhqir ikən,
Axı niyə qalıbsınız,
Yalvarıram,
Çıxın, gedin.
Ruhunuza hökm edirsə
Uca tanrı, təriqət, din,
Müsəlmansız – and verirəm
O Məhəmməd peyğəmbərə,
Bütpərəstsiz – and verirəm,
Daş gövdəli o bütlərə,
Xaçpərəstsiz – and verirəm,
O İsaya, o İncilə,

Çıxın gedin evinizə –
Belçikaya, Brüsselə.
İllər boyu bu torpağın
Alt qatını sökdünüz siz,
Parlaq almaz apardınız
Gözlərimin yaşı kimi,
Bir göynəyən yara varmı
Ürəyimin başı kimi?
Misim getdi...
Yox, soydunuz
Bu mis rəngli dərimi siz,
Öz malınız elədiniz
Sərvətimi, yerimi siz.
Mənim yurdum narınc, turunc,
Dadlı banan ölkəsidir,
Lakin özüm, əhl-əyalım.
Bu meyvələr təşnəsidir.
Bir zamanlar bazarları
Dolduran bu nemətləri
Biz özümüz alammırıq,
Ərşə qalxıb qiymətləri.
Sizinkilər alıb yeyir,
Barmaq sorur mənim balam,
Rəvamıdır nəyim varsa
Sən yeyəsən, mən ac qalam?!
Nə eybi var, nəyim varsa
Alın gedin,
Soyun gedin.
Bizim üçün bu torpaqda
Bir azadlıq qoyun gedin.

Danışdıqca konqolu gənc
Od yağırdı nəfəsindən,
Elə bildim o pələngdir –
Qəfil çıxdı qəfəsindən.
Mənə aid olmasa da
Hayqırığı, bu sözləri,

Heç özüm də hiss etmədən
Mən çəkildim bir az geri.
Dil-dodağı qıfıllıtək
Oturmuşdu yeddi nəfər.
Nə bir kəlmə cavab verir,
Nə də çıxıb gedirdilər.
Fermer isə dodaqaltı
Deyinirdi özlüyündə,
Çilçıraqlar alışırdı
Onun dördkünc gözlüyündə.
Konqolu gənc dilə gəldi,
Pozdu ani sükunəti:
– Gör nə hala salıbsınız
Konqo adlı bu milləti.
Yüz il əvvəl konqolular
Otuz milyon nəfər idi,
O zamanlar torpağını
Özü əkər, biçər idi.
İndi on dörd milyon qalıb
Bu torpaqda konqolular.
Siz gələni bizim yurda
Qırılırıq qatar-qatar.
Belə getsə...
O cavanın
Gözündə parlayan nədir,
Göz yaşıdır, yoxsa qəzəb?
O danışır,
Biganədir:
– Belə getsə nə konqolu,
Nə də Konqo qalacaqdır,
Bir milləti məhv eləmək!
Yox, bu ağdır!
Yox, bu ağdır!
Bizə qardaş deyirsiniz,
Qardaş belə olar məgər,
Bu nə sayaq qardaşlıqdır –
Biri işlər, biri yeyər.

Bu nə sayaq qardaşlıqdır –
Məndən mənə doğma yeri
Silah ilə qoruyur, bax,
Belçikanın polisləri.
Bu nə sayaq qardaşlıqdır –
Mənimlə bir oturmağı
Özünüzə ar bilirsiniz,
Bu nə təhər olur axı
Qəzetlərdə, kitablarda
"Biz qardaşıq" deyirsiniz.
Bu şüarla yüz ildir ki,
Ətimizi yeyirsiniz.
Bu yalanın həddi, sonu
Olacaqmı, deyin barı?
Bir zamanlar sizin təki
Avropanın vassalları
Qardaş deyib qardaşının
Dərisini soyardılar,
Var-yoxunu talayaraq,
Quru yerdə qoyardılar.
"Biz qardaşıq, bərabərik!" –
Yalana bax,
Yalana bax,
Kürəyimə qamçı çəkib,
Mənə qardaş olana bax!
Qardaşıqsa
Biz də gəzək
Belçikada qardaş kimi,
Bu tamaşa salonunda
Gəl oturaq yoldaş kimi.
Qardaşıqsa
Nə eybi var,
Bu qardaşlıq xatirinə
Hər kəs getsin öz elinə,
Hər kəs getsin öz evinə!
Deyirsiniz biz olmasaq
Sən batarsan yelkən kimi;

Deyirsiniz
Bol sərvətli
Ölkələr var ölkən kimi,
Ancaq onlar geri qalıb
Mədəniyyət ayağından.
Deyirsiniz
Yollar çəkib,
Evlər tikdik torpağında.
Xeyr, cənab,
Xeyr, cənab!
İyirminci əsrdi bu,
Meşələrin qoynuna da
Çəkilirkən dəmir yolu,
Cəngəlliklər qucağında
Ucalırkən ağ binalar,
Torpaqlardan maşınlarla
Yığılarkən bol bəhrə, bar,
Oyanırkən o əlçatmaz
Madaqaskar adası da,
Deyirsiniz mənim yurdum
Cəhalətdə yatasıdır?
Bu tarixdir, bu zamandır,
Saxlanılmaz bir gərdişdir!
Yaxşı,
Sizin özünüzü
Kim mədəni eləmişdir?
Nəydi sizin keçmişiniz,
Nəydi sizin dünəniniz?
İllər boyu ispanların
Qarşısında titrədiniz.
Yurdunuzda at çapdıqca
Gah fransız, gah da alman,
Dilinizin sözləri də
Gəldi ordan, gəldi burdan.
Öz diliniz yoxdu belə
Danışırsız özgə dildə,
Utanmadan deyirsiniz:

"Bir baxınız,
Sizin eldə
Mədəniyyət yaratmışıq!"
İstəmirik bunları biz,
Dağıdınız, aparınız
Varsa burda hər nəyiniz!
Tikdiyiniz evləri də,
Çəkdiyiniz yolları da
Sökün tamam,
Aparınız
Maşını da, qatarı da.
Dövlət, sərvət –
Bu torpaqda
Hər nə varsa aparınız,
Bizim üçün qara rəngli
Bir azadlıq qoyun yalnız!
Dərimizin rəngi kimi
Bir azadlıq qoyun bizə,
Çıxın gedin bu torpaqdan,
Çıxın gedin evinizə!
Konqolu gənc susub durdu,
Atəş açmış toplar kimi.
Qalxdı mənim gözümdə o,
Cavan yox,
İxtiyar kimi.
Bu sözləri deyən, sandım
Milyon dodaq, milyon dildi,
Bu sözləri deyən, sandım
Mən özümdüm, o deyildi!
Bir də baxdım, salon boşdu,
Çıxıb gedib yeddi nəfər,
Təbəssümlə parlayırdı
Bəyaz dişlər,
Qara gözlər.
Hiss etdim ki, pəhləvantək
Güvənirdi özünə o,

Sonra açdı qapıları
Qaraların üzünə o,
Birdə anda boş salonu
Konqolular tutdu bütün,
Xəyalımda bir qələbə
Rəmzi oldu həmin o gün.
Sonra həmin konqolu gənc
Seyr eləyib dörd bir yanı,
Dedi:
– Açın pərdələri,
Ey, başlayın tamaşanı!

1968-69

KOR BAĞIRSAQ

Mənim bu səhnəyə gəlişim ki var,
Qəmli günlərimi salır yadıma.
Məni baş rollara buraxmırdılar
Baxmayıb arzuma, istedadıma.

Çox vaxt mən əvəzçi olurdum ancaq,
Əvəz etməsəm də heç bir aktyoru.
Daim ətsiz, qansız müqəvva olmaq,
Doğrudan,
insanı bezdirir, yorur.

Bizim səhnəmizdə "ulduz" sayılan,
Hörməti, şöhrəti ərşə yayılan
Qoca aktyor da mənə həmişə
Təsəlli verərdi:
– Bu çətin peşə
Həm də səbr istəyir,
Dözəsən gərək.
Bir zaman vardı ki, mən də sənintək...

Yox, yox, mənim kimi olmamışdı o,
Hələ də səhnədə bir kölgəyəm mən.
Yeddi il əvəzçi qalmamışdı o,
"Ulduz"a dönmüşdü birinci gündən.

Böyük dühaların qəhrəmanları
Onun dodağıyla danışıb bir-bir.
"Ulduz" qarışdırıb bəzən onları,
Ayırmaq olmayıb
hansı kimindir.

Səhnədə nüfuzlu bir rəhbər kimi
"Ulduz" çatmaqdansa mənim dadıma,
Kəsirdi qarşımı bir çəpər kimi,
Baxmayıb arzuma, istedadıma...

... Bu gün "Kral Lir"in son məşqləridir,
"Ulduz" at sürəcək səhnədə yenə.
Allahlıq edərdim,
Necə yeridir!
Bircə gün bu rolu verələr mənə!
Budur, afişalar qızarır gendən:
"Kral Lir".
Baş rolda "ulduz"un adı.
Səhnəyə gəldiyim birinci gündən
Adım afişaya heç yazılmadı!

Vaxt olub təsadüf yayda qar kimi
Yanan bir sinəyə əlini çəkmiş.
Mənim taleyimi hökmdar kimi
Demə kor bağırsaq həll edəcəkmiş!
Birinci tamaşa günü
sübh çağı.

"Ulduz" sağ böyürünə atdı əlini,
Ah, mirasa qalsın kor bağırsağı,
Kişinin yamanca qırdı belini!

Cərrah təşrihini vurantək başa
"Ulduz" inildədi:
– Necə olacaq bəs?
Təxirə salınsın gərək tamaşa,
Liri başqa biri oynaya bilməz!

Necə?
Mümkündür?
Tamaşaçılar
Qapını sındırır çöldə az qala.
Durdum rejissorun önündə naçar,
Könülsüz söylədi:
– Di geyin, bala...

Mən necə oynadım –
bilirlər bunu.
Bu əsl Lir idi!
Şekspir Liri!
Yeni bir "ulduz"un doğulduğun
Hətta qəzetlər də yazdı səhəri.

Bəli,
kor bağırsaq sal buzu qırdı...
Pərdə salınmamış qalxıb o saat
Birbaş qapılara qaçan camaat
Dayanıb
məni hey alqışlayırdı.

...Səhnənin daşını atardım, inan,
baxmayıb arzuma,
istedadıma.
Bədəndə bir artıq əza sayılan
Bax, bu kor bağırsaq
çatdı dadıma.

PORTUQALİYA SƏFƏRİ

Mən ellər, obalar üstdən addadım,
Keçdim neçə-neçə qərib ölkədən,
Nə şöhrətim vardı, nə də ki, adım,
Bədəlbəy nəvəsi Fərhad idim mən*.

Musiqi apardım bir dünya qədər
Mən öz ürəyimdə, barmaqlarımda.
Dedim: – Məni necə dinləyəcəklər
Müstəbid hökm edən yad diyarında?!

Orda ki hakimlər fəryad səsini
Musiqi səsindən uca tuturlar.
Düşündüm,
Könlümün təranəsini
Orda kim anlayar,
Orda kim duyar?!

Hələ Lissabona gəlməmiş,
Səhər
Mən baxdım dünyanın xəritəsinə.
Bir Portuqaliya bütöv yerləşər
Gördüm
Anqolanın hər nöqtəsinə.

Gördüm
Mozambiki doğrasan, çıxar
Bir Portuqaliya
hər parçasından;
Düşündüm qul olmuş azmanlar da var,
Düşündüm azmanı qul edib cırtdan.

Düşündüm
Tarixin səhifəsində
Bu nə möcüzədir,

* Azərbaycanınxalq artisti Fərhad Bədirbəyliyə işarədir.

Bu nə ləkədir, –
Nəhəng bir Qulliver öz ölkəsində
Uzaq liliputa müstəmləkədir!

Lakin diplomat yox,
Lissabona mən
Musiqi aparan səfir gedirdim.
Parlayan royala baxıb
ona mən
Ovsuna düşmüştək heyrət edirdim.

Necə dillənəcək bu cansız royal
Salazar hökm edən qəm diyarında?
Hansı bir qüvvəsə mənə dedi: – Çal!
Fil gücü hiss etdim barmaqlarımda.

Çaldım...
Dindi Qara, danışdı Cövdət –
Vətən torpağımın kamanı, sazı.
Səsləndi Bethoven – o ulu qüdrət,
Dindi "Qəhrəmanlıq" simfoniyası.

Bəlkə onda qalxdı Portuqaliya
Oyandı illərlə yuxulu qeyrət,
Artıq son qoymaqçün qəmə, naləyə,
O gün öz-özünü dərk etdi millət?!

Bəlkə həmin o gün baxıb özünə,
Miskin həyatına
çəkdi xəcalət,
Utandı bu səbrə, müti dözümə,
O gün öz-özünü dərk etdi millət?!

Bəlkə o gün duydu –
Özü qul ikən
Özgəyə gətirib zülm, əsarət,
Zalımlar yurdudur bu yurd, bu vətən,

O gün öz-özünü dərk etdi millət?!
Bəlkə yetişmişdi ağacda bartək
Azadlıq həsrəti,
inqilab,
cürət,
Bu taxt uçmalıydı çürük divartək,
Bəlkə dərk etmişdi özünü millət?!

Sən demə, bu özü hökmü-zamanmış,
Vulkan püskürərmiş vaxtı çatanda.
Özünü duymamaq dərdi yamanmış,
Fəlakət olurmuş bir xalq yatanda!
Mən o gün çalırdım,
Bilmirdim bəlkə
Kül altda atəş var, buludda şimşək!
Artıq silkələnib qalxır bu ölkə
İllər yuxusundan duran adamtək.

Çalırdım,
Bilmirdim burda əsgər də
Bezib müstəbidə keşik çəkməkdən.
Bu gün süngüsünü o döndərər də,
Hakimin köksünə sancar ürəkdən!

Çalırdım,
Bilmirdim uzaq Anqola,
Mozambik eşidir,
məni dinləyir.
Dərdli Qvineya bu dəm az qala
Efiri su kimi içir,
inləyir.
Çalırdım...
Bilmirdim bir az kənarda
Artıq addımlayır xoş bir gələcək.
Bilmirdi bu sirri heç Salazar da –
Kül altda atəş var,
buludda şimşək!

SƏNİN ƏSƏRİN

Məndən incimisən,
Deyirsən niyə
Sənin əsərində rol götürmədim.
Özün bilirsən ki, mən bu səhnəyə
Ötəri şöhrətçün gəlib girmədim.

Qrimi üzümə çəkdiyim gündən
Güdmədim alqışı, quru ad-sanı.
İstərdim sənin də əsərinin mən
Olaydım birinci baş qəhrəmanı.

Xoşuma gəlmədi əsər,
Doğrusu,
Durğun gölməçətək dayazdır yazın.
Axı, nə zamandan bostan oğrusu
Bəlası olubdur həyatımızın?!

Səndə bir kilodan yeddi qram ət
Kəsən bir satıcı faciəmizdir.
Balaca oğrular səndə fəlakət,
Azman oğrularsa safdır, təmizdir.

Bəlkə çəkinirsən?
Qorxursan bəlkə,
Yazmırsan ağı ağ, qaranı qara?
Bilirsən, anadır bizim bu ölkə
Azad bir sənətə, mərd sənətkara!

Bir zaman Şekspir kralı, şahı
Çəkirdi səhnəyə mərdi-mərdana.
Lordu, kardinalı, hətta allahı
Çəkirdi səhnəyə – haqq divanına.

Sən yaxşı bilirsən:
Heç bir əsrdə
Baqqal, ya dükandar bəla olmayıb.
Həqiqət nəfəsli heç bir əsərdə
Kiçik bir alverçi rüşvət almayıb.

Yazıb bir felyeton söhbətini sən,
Deyirsən:
Bax, budur, əsrin azarı.
Milçəyi vurursan top lüləsindən,
Hanı əsrimizin qəhrəmanları?!

Böyük bir yürüşə başlamışıq biz,
Bu yolun dönməyən igidləri var.
Onları göstərsin gərək səhnəmiz,
Onları göstərsin gərək sənətkar.

Səhnəyə gəldiyim zamandan bəri
Neçə əsər gördüm, neçə rol, ay dost!
Doğrudur,
Alverçi, baqqal, sərsəri
Bu nəhəng səhnəyə tapıb yol, ay dost!

Fəqət yadımızda qalmayıb əsla,
Təbaşir tozutək silinib onlar.
Lakin soyumayan bir ehtirasla
Yaşayır dağ yaran mərd qəhrəmanlar.

Hanı səhnəmizin yeni Alması?
Hanı qalstuklu İmamyar, ay dost?
Onların bitməyib hələ davası,
Başqa görkəm alıb vuruşlar, ay dost!

Yüksək rəyasətli adamlar var ki,
Nitqində qurbandır vətənə, elə.
Bərkdə öz sözündən elə qaçar ki,
Eli də, xalqı da salar əngələ.

Keçmiş muzdurlar var – zadəganlaşıb,
Keçmiş nökərlər var – ağalaşıbdır...
Qurdlar var – quzutək mehribanlaşıb,
Quzu var – qurd kimi həddin aşıbdır.

Bunları göstər ki, şanlı səfərdə
Buxov olmasınlar ayağımıza.
Böyük söhbətlərdən doğur əsər də,
Kim gəlib tamaşa edər cılıza?!

Səhnəyə əzəldən deyiblər güzgü,
Demək o, həyatı göstərsin gərək.
Sənin əsərini oxudum...
Düzü,
Orda nə həyat var, nə baş, nə ürək.

Xoşuma gəlmədi əsər...
Doğrusu,
Durğun gölməçətək dayazdır yazın.
Axı, nə zamandan bostan oğrusu
Bəlası olubdur həyatımızın?!

Yanvar-mart, 1970

MÜTİLƏR

Bu gün çar Edipəm,
Qarşımda qullar
Əsir əsim-əsim, titrəyir zağ-zağ.
Bilmirəm hakimlər qorxunc olurlar,
Yoxsa qul adəti əsməkdir ancaq?
Əsir vəzirlərim, müşavirlərim,
Ordular dağıdan sərkərdələrim,
Əsir məddahlarım – öz şairlərim,
Neçün əsdiyini anlamır heç kim.

Əsir haqq deyən də, nahaq deyən də,
Əyrilər də əsir, düzlər də əsir.
Əsir halallar da, haram yeyən də,
Kirpiklər səyriyir, gözlər də əsir.

Sanki milyon başlı əjdahayam mən,
Tərpənsəm bir anda dağılar aləm.
Özümə baxıram – cılız bir bədən,
Bir qul yumruğuna dözə bilmərəm.

Fəqət taxtın, tacın vahiməsini
O qul uca tutur öz qüvvəsindən.
Azca tərpəndimmi, kəsir səsini,
Dinsə dağ titrəyir onun səsindən.

Neron da, Pavel də, Qacar da, Kir də
Beləcə hökm edib...
Keçib əsrlər...
Edipəm, baxıram dövrəmə bir də,
Mütilər...
Mütilər zağ-zağ əsirlər.

Deyirəm yaxşı ki, səhnədir bura,
Edip paltarında aktyoram mən.
Uzaq olacağam bir saat sonra
Qullar dünyasının mütiliyindən.

Onlara baxdıqca iyrənir ürək,
Önündə əsirlər kralın, serin.
Onlar olmasaydı,
güney qarıtək
Ömrü az olardı müstəbidlərin.

1975

Hər şeyi təzədən başlayaq gəlin

QIZIL TAC KİMİ

Qızım Ülkərə

Heç nə istəmirəm,
Ay dost, quşların
Səhər nəğməsini mənə bağışla.
Bu sübh şəfəqinə vurulmuşların
Bitməz həvəsini mənə bağışla.

Görüm yarpaqların üstə şehi də,
Sükut nəğmə kimi axsın sinəmə.
Saflığın nəfəsi səhər mehi də
Şəfqətli əlini çəksin çənəmə.

Gecə növbəsindən evə qayıdan
O yorğun üzləri ilkin mən görüm.
Göylərdən siləndə gümüş Ayı dan
Yuxusuz gözləri ilkin mən görüm.

Yığım göy üzündən son qaranlığı
Yanağa tökülən qara saç kimi.
Günəşin qızılı hökmranlığı
Qoyulsun başıma qızıl tac kimi.

Kaş ki gözlərimdə gülə dan yeri,
Bir ömrə vermərəm bu ani vaxtı...
Gecə rəngindədi hələ dan yeni,
Ulduzlar oyaqdı, qəmər oyaqdı.